# Son hadisələr "Sky News Arabia" telekanalında

Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozaraq qəflətən hücuma keçməsi, Azərbaycan qoşunlarının təmas xəttində yaranmış son gərginliklə əlaqədar Xarici İşlər Nazirliyinin aprelin 3-də yaydığı bəyanat, həmçinin ətraf kəndlərin ağır artilleriya atəşinə tutulması nəticəsində mülki insanların qətlə yetirilməsi, məscidlərin, yaşayış evlərinin top atəşinə tutulması və bu kimi digər faktlar Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu "Sky News Arabia" telekanalının xəbərlər proqramında işıqlandırılıb.

Azərbaycanın BƏƏ-dəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, "Sky News Arabia" telekanalının aparıcısı Məcid Əl-Fərisi Ermənistan tərəfindən atəşkəsin pozulması və hərbi qarşıdurmaların yenidən başlanmasından sonra erməni ordusu tərəfindən atəşə tutulan kəndlər barədə məlumat verib. Həmçinin bildirilib ki, Azərbaycan daim bu problemin dinc və siyasi yollarla həllinin tapılmasına çalışır. Lakin Ermənistan tərəfindən bu proses əngəllənir. Aprel ayının 2-nə keçən gecə Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusuna məxsus mövqelərə və azərbaycanlıların sıx şəkildə məskunlaşdıqları ərazilərə ağır pulemyotlardan, artilleriya və minaatanlardan atəş açıblar. Nəticədə mülki şəxslər həlak olub, yaralanıblar. Özü də bu atəşlər digər ölkənin ərazisindən deyil, məhz Ermənistan tərəfindən işğal olunan Azərbaycan ərazilərindən açılır. Bildirilib ki, Azərbaycan rəhbərliyi tərəfindən bu kimi təxribat xarakterli aksiyaların dayandırılmasının labüdlüyünə, eyni zamanda, qarşı tərəfə bu rayonların dağıdılmaması, həmin rayonlarda yaşayan mülki şəxslərin qətlə yetirilməməsi naminə müvafiq cavabın verilməsinin zəruriliyinə dair qərar qəbul edilib.

Verilişdə vurğulanıb ki, Azərbaycan bu problemin həlli yolları ilə bağlı əsas olaraq BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və BMT Baş Assambleyasının sənədlərində qeyd olunan müddəaları əsas götürür. Həmin sənədlərdə birmənalı olaraq qeyd olunur ki, Ermənistan öz silahlı qüvvələrini dərhal və tam şəkildə Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmalıdır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü toxunulmazdır. Beləliklə, Ermənistan sadalanan müddəalar və qərarlardan doğan öhdəliklərə əməl etməlidir.

"Sky News Arabia" ərəbdilli peyk kanalı mənzil-qərargahı Böyük Britaniyada yerləşən "Sky plc" şirkəti ilə "Abu Dabi Media Investment Corporation" arasında yaradılmış birgə müəssisədir. Baş ofisi Əbu Dabi şəhərində yerləşir. London və Vaşinqtonla yanaşı, Yaxın Şərq və Şimali Afrika ölkələri üzrə nümayəndəlikləri fəaliyyət göstərir. Zərurət yarandığı təqdirdə Londondan yayımlanan "Sky News" dünya üzrə fəaliyyət göstərən nümayəndəlik və müxbirlərinin imkanlarından istifadə edir. Kanalın Abu Dabidə FM dalğası ilə yayımlanan "Sky News Arabia" radio stansiyası da fəaliyyət göstərir.